## Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa və "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq **qərara alıram:**

1. Dövlət Bankının, keçmiş SSRİ Sənaye-Tikinti Bankının, SSRİ Aqrar-Sənaye Bankının Azərbaycan respublika bankları bazasında Azərbaycan Respublikasının Milli Bankı yaradılsın, əvvəlki bankların 1992-ci il yanvarın 1-dək olan aktivləri və passivləri Milli Banka verilsin.
2. Qalib Ağabala oğlu **Ağayev** Azərbaycan Respublikası Milli Bankının prezidenti təyin edilsin.
3. Q. A. Ağayevə tapşırılsın ki, bir ay ərzində Azərbaycan Respublikası Milli Bankının Nizamnaməsinin layihəsini hazırlayıb onu təsdiq edilmək üçün müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasına təqdim etsin.
4. Bu Fərman dərc olunduğu andan qüvvəyə minsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**A. MÜTƏLLİBOV.**

Bakı şəhəri, 11 fevral 1992-ci il.
№ 566.